UOT 323(479.24)
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5011

# AZƏRBAYCAN RESPUBLİKASINDA PREZİDENT HAKİMİYYƏTİNİN TƏKAMÜLÜ VƏ MİLLİ SİYASİ MODELİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**FİDAN ELDAR QIZI YUSİFZADƏ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı*
*Bakı ş., Səbail r., AZ 1001, Lermontov küç. 74*
*ORCID: https://orcid.org/0009-0004-0548-6131,*
*E-mail: fidan.yusifzada@dia.edu.az*

## XÜLASƏ

Məqalədə Azərbaycan Respublikasında prezident hakimiyyətinin formalaşması və inkişaf mərhələləri Heydər Əliyev və İlham Əliyevin siyasi fəaliyyəti kontekstində təhlil olunur. Tədqiqatda 1969-cu ildən başlayaraq Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda həyata keçirilən iqtisadi, siyasi və milli-mədəni islahatlar, milli dövlətçilik düşüncəsinin formalaşması və azərbaycançılıq ideyasının inkişafı araşdırılmışdır. Eyni zamanda müstəqillik illərində Azərbaycanda yaranmış siyasi böhran, Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı, dövlət idarəçiliyində sabitliyin təmin olunması, ordu quruculuğu və balanslaşdırılmış xarici siyasət kursunun formalaşdırılması geniş şəkildə şərh olunur. Tədqiqatda İlham Əliyevin prezidentliyi dövründə həyata keçirilən iqtisadi inkişaf strategiyası, enerji siyasəti, Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizi layihələrinin əhəmiyyəti, regionların sosial-iqtisadi inkişaf proqramları və dövlət idarəçiliyində institusional islahatlar xüsusi yer tutur. Həmçinin 2020-ci ildən sonrakı postmüharibə dövrü, Azərbaycanın ərazi bütövlüyünün bərpası, Qarabağda həyata keçirilən yenidənqurma siyasəti, "Böyük Qayıdış" proqramı, Zəngəzur dəhlizi layihəsi və COP29 çərçivəsində Azərbaycanın beynəlxalq nüfuzunun güclənməsi məsələləri müasir siyasi proseslər kontekstində araşdırılmışdır

**Açar sözlər:** *prezident idarəetmə sistemi, milli dövlətçilik, azərbaycançılıq ideologiyası, siyasi sabitlik, postmüharibə inkişafı.*

XX əsrin ikinci yarısında Azərbaycan SSR həm iqtisadi, həm də ictimai-siyasi baxımdan mürəkkəb bir mərhələ yaşayırdı. Sovet idarəetmə sisteminin sərt mərkəzləşdirilmiş siyasəti respublikanın daxili inkişaf imkanlarını məhdudlaşdırır, mövcud potensialdan tam şəkildə istifadə olunmasına mane olurdu. Respublikada idarəçilikdə yaranmış durğunluq, iqtisadi göstəricilərin zəifləməsi və sosial problemlərin dərinləşməsi cəmiyyətdə ciddi narahatlıq doğururdu. Belə bir şəraitdə ölkəyə bacarıqlı, qətiyyətli və milli maraqları müdafiə edə biləcək rəhbərin gəlməsi tarixi zərurətə çevrilmişdi. Məhz bu dövrdə Heydər Əliyevin siyasi hakimiyyətə yüksəlməsi Azərbaycanın gələcək inkişaf istiqamətini müəyyən edən mühüm hadisə oldu.

1969-cu ilin 14 iyulunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi Azərbaycan SSR tarixində dönüş nöqtəsi hesab olunur. Həmin dövrdə Respublika iqtisadi gerilik, idarəetmədə korrupsiya, istehsal intizamının zəifləməsi və sosial problemlərlə üz-üzə idi. Sovet İttifaqının tərkibində olan Azərbaycan əsasən xammal bazası funksiyasını yerinə yetirirdi və ittifaq rəhbərliyi respublikanın sənaye potensialının tam inkişafında maraqlı deyildi. 1960-cı illərin sonlarında Azərbaycanda sənaye istehsalının artım tempi aşağı düşmüş, kənd təsərrüfatında məhsuldarlıq azalmış, şəhər və rayonlarda sosial infrastruktur problemləri dərinləşmişdi. Məhz belə mürəkkəb şəraitdə Heydər Əliyevin hakimiyyətə gəlməsi respublikada yeni inkişaf mərhələsinin başlanğıcı oldu.

Heydər Əliyev rəhbərliyinin ilk illərindən idarəetmə sistemində ciddi intizam yaratmağa çalışdı. O, iqtisadiyyatın müxtəlif sahələrində mövcud olan korrupsiya və məsuliyyətsizliklə mübarizə aparır, dövlət idarəçiliyində peşəkarlığı əsas meyar kimi müəyyənləşdirirdi. Bu siyasət nəticəsində qısa müddət ərzində respublikada iqtisadi göstəricilər yüksəlməyə başladı. Azərbaycan SSR artıq ittifaq daxilində geridə qalan respublikalardan biri deyil, inkişaf edən sənaye regionu kimi tanınmağa başladı [3, s.143-145].

1970-ci illərdə həyata keçirilən sənayeləşmə siyasəti Heydər Əliyevin iqtisadi kursunun əsas istiqamətlərindən biri idi. Onun rəhbərliyi dövründə yüzlərlə yeni sənaye müəssisəsi yaradıldı. Bakı Məişət Kondisionerləri Zavodu, Dərin Özüllər Zavodu, Elektron Hesablama Maşınları Zavodu, Sumqayıt kimya sənayesi kompleksləri və digər iri istehsal müəssisələri Azərbaycanın iqtisadi potensialını artırdı. Xüsusilə neft maşınqayırması və kimya sənayesinin inkişafı respublikanın SSRİ daxilində strateji əhəmiyyətini yüksəltdi. Bu müəssisələr yalnız ittifaq bazarı üçün deyil, xarici ölkələr üçün də məhsul istehsal edirdi.

Heydər Əliyev Azərbaycanın yalnız neft sektoru hesabına inkişaf etməsinin təhlükəli olduğunu anlayırdı. Buna görə də o, qeyri-neft sənayesinin inkişafı-

na xüsusi diqqət ayırırdı. Yüngül sənaye, elektrotexnika, tikinti materialları sənayesi və kənd təsərrüfatı məhsullarının emalı sahələrində böyük müəssisələr istifadəyə verilirdi. 1970-ci illərin sonuna doğru Azərbaycan SSR-də sənaye məhsulu istehsalı əvvəlki onilliklə müqayisədə əhəmiyyətli dərəcədə artmışdı.

Kənd təsərrüfatında da geniş islahatlar həyata keçirilirdi. Xüsusilə pambıqçılıq, üzümçülük, tütünçülük və heyvandarlığın inkişafına diqqət artırılmışdı. Kür-Araz ovalığında meliorasiya və suvarma layihələrinin genişləndirilməsi kənd təsərrüfatında məhsuldarlığın artmasına səbəb olmuşdu. Yeni su anbarları və kanallar istifadəyə verilirdi. Bu tədbirlər nəticəsində Azərbaycan SSR bir sıra kənd təsərrüfatı məhsullarının istehsalına görə ittifaqda qabaqcıl mövqelərə yüksəlmişdi [3, s.145-152].

1970-ci illərdə Heydər Əliyevin həyata keçirdiyi siyasətin mühüm istiqamətlərindən biri milli kadr hazırlığı idi. O yaxşı başa düşürdü ki, gələcəkdə milli dövlətçilik ənənələrinin formalaşması üçün yüksəkixtisaslı azərbaycanlı mütəxəssislərə ehtiyac olacaqdır. Bu məqsədlə minlərlə azərbaycanlı gəncin SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almasına şərait yaradıldı. Xüsusilə Moskva, Leninqrad, Kiyev və digər şəhərlərin ali məktəblərinə göndərilən tələbələr sonralar Azərbaycanın siyasi, iqtisadi və hərbi elitasının formalaşmasında mühüm rol oynadılar. Milli hərbi kadrların hazırlanması Heydər Əliyevin xüsusi diqqət yetirdiyi sahələrdən idi. 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması Azərbaycanın gələcək milli zabit korpusunun formalaşması baxımından mühüm əhəmiyyət daşıyırdı. Sonrakı dövrdə Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparan bir çox zabit məhz həmin məktəbin yetirmələri olmuşdur .

Heydər Əliyevin fəaliyyəti yalnız iqtisadi inkişafla məhdudlaşmırdı. O, milli-mədəni dirçəliş prosesinə də böyük diqqət ayırırdı. Sovet ideoloji sisteminin ciddi nəzarətinə baxmayaraq, Azərbaycan dilinin və milli-mədəni dəyərlərin qorunması istiqamətində mühüm addımlar atılmışdı. 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması həmin dövr üçün mühüm siyasi hadisə idi. SSRİ rəhbərliyi bir çox hallarda rus dilinin dominantlığını gücləndirməyə çalışsa da, Heydər Əliyev Azərbaycan dilinin hüquqi statusunun qorunmasına nail olmuşdu. Bu məsələ milli özünüdərk prosesinin inkişafında xüsusi rol oynadı.

Heydər Əliyevin milli siyasətinin əsas xüsusiyyətlərindən biri azərbaycançılıq ideyasının formalaşdırılması idi. O, Azərbaycan xalqının milli kimliyinin qorunmasını strateji məsələ hesab edirdi. Bu siyasət xüsusilə milli ziyalıların fəaliyyətinə verilən dəstəkdə özünü göstərirdi. Azərbaycan tarixinin, ədəbiyyatının və milli-mədəni irsin öyrənilməsinə xüsusi diqqət yetirilirdi. Sonrakı dövrlərdə müstəqil Azərbaycan dövlətinin ideoloji əsaslarından birinə çevrilən azərbaycançılıq ideyası məhz həmin illərdə daha sistemli xarakter almağa başlamışdı.

1970-ci illərdə Azərbaycanın iqtisadi inkişaf göstəriciləri SSRİ rəhbərliyinin də diqqətini çəkirdi. Respublika bir sıra sosial-iqtisadi nailiyyətlərinə görə ittifaq səviyyəsində nümunə göstərilirdi. Heydər Əliyevin sərt idarəçilik üslubu, yüksək təşkilatçılıq qabiliyyəti və strateji düşüncə tərzi onun nüfuzunu artırmışdı. Bu səbəbdən 1982-ci ildə o, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.İKP MK Siyasi Bürosunun üzvü vəzifəsinə yüksəldildi. Bu, Azərbaycan tarixində ən yüksək siyasi mövqelərdən biri idi və Heydər Əliyevin ittifaq rəhbərliyində böyük nüfuz qazandığını göstərirdi [7, s.4-5].

1980-ci illər həm Sovet İttifaqı, həm də Azərbaycan üçün mürəkkəb siyasi proseslərlə xarakterizə olunurdu. Bu dövrdə Heydər Əliyevin fəaliyyəti artıq yalnız Azərbaycan miqyasında deyil, ümumittifaq səviyyəsində mühüm siyasi hadisəyə çevrilmişdi. 1982-ci ilin dekabrında Heydər Əliyevin Sovet İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini və Sov. İKP MK Siyasi Bürosunun üzvü seçilməsi onun SSRİ rəhbərliyində ən yüksək mövqelərdən birinə yüksəldiyini göstərirdi. Bu hadisə Azərbaycan tarixində xüsusi əhəmiyyətə malik idi, çünki ilk dəfə olaraq azərbaycanlı siyasətçi SSRİ-nin ali hakimiyyət strukturlarında təmsil olunurdu [3, s.43-46].

SSRİ rəhbərliyində fəaliyyət göstərdiyi illərdə Heydər Əliyev sənaye, nəqliyyat, tikinti, energetika və sosial sahələrin idarə olunmasına rəhbərlik edirdi. O, xüsusilə böyük sənaye layihələrinin koordinasiyasında mühüm rol oynayırdı. Baykal-Amur magistralının tikintisi, iri maşınqayırma komplekslərinin yaradılması, enerji sistemlərinin modernləşdirilməsi kimi strateji layihələr onun nəzarətində idi. Sovet iqtisadiyyatının durğunluq dövrü yaşadığı bir mərhələdə Heydər Əliyev idarəçilik qabiliyyəti, yüksək intizam tələbi və strateji qərarları ilə fərqlənirdi.

1980-ci illərdə Heydər Əliyevin fəaliyyətinin mühüm istiqamətlərindən biri də milli kadr siyasətinin davam etdirilməsi idi. O, müxtəlif ittifaq strukturlarında azərbaycanlı mütəxəssislərin irəli çəkilməsinə çalışırdı. Bunun nəticəsində bir çox azərbaycanlı mühəndis, alim və dövlət qulluqçusu SSRİ miqyasında mühüm vəzifələrə yüksələ bilmişdi. Bu proses sonralar müstəqil Azərbaycanın dövlət aparatının formalaşmasında ciddi rol oynadı.

Lakin 1985-ci ildə Mixail Qorbaçovun hakimiyyətə gəlməsindən sonra SSRİ-də siyasi vəziyyət dəyişməyə başladı. “Yenidənqurma” və “aşkarlıq” siyasəti ilk baxışda islahat xarakteri daşısa da, əslin-

də ittifaq daxilində milli və siyasi ziddiyyətləri daha da gücləndirdi. Yeni rəhbərlik daxilində Heydər Əliyevə qarşı mənfi münasibət formalaşmışdı. Onun sərt idarəçilik modeli və yüksək nüfuzu bəzi dairələri narahat edirdi. Nəticədə 1987-ci ilin oktyabrında Heydər Əliyev vəzifəsindən istefa verməyə məcbur edildi [3, s.190-191].

Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması Azərbaycanın siyasi həyatı üçün ağır nəticələr yaratdı. Məhz bundan sonra erməni millətçiləri Dağlıq Qarabağ məsələsini daha fəal şəkildə gündəmə gətirməyə başladılar. 1988-ci ildə Ermənistan SSR tərəfindən Dağlıq Qarabağın Azərbaycandan ayrılması tələbi irəli sürüldü. SSRİ rəhbərliyinin qeyri-obyektiv mövqeyi vəziyyəti daha da gərginləşdirdi. Azərbaycan rəhbərliyi isə zəif və qətiyyətsiz siyasət yürüdürdü.

1988-1990-cı illərdə Azərbaycanda milli azadlıq hərəkatı genişlənməyə başladı. Xalq arasında SSRİ rəhbərliyinə qarşı narazılıq artırdı. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, qaçqın problemi və Moskvanın ikili siyasəti cəmiyyətdə ciddi etiraz doğururdu. Həmin dövrdə Heydər Əliyev artıq siyasi təzyiqlərlə üzləşsə də, Azərbaycanın milli maraqlarını müdafiə edən çıxışlar edirdi.

1990-cı ilin 20 Yanvar faciəsi Azərbaycan tarixinin ən ağır hadisələrindən biri oldu. Sovet ordusunun Bakıya yeridilməsi nəticəsində yüzlərlə insan öldürüldü və yaralandı. Hadisədən dərhal sonra Heydər Əliyev Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək SSRİ rəhbərliyinin siyasətini açıq şəkildə ittiham etdi. Bu bəyanat həmin dövrdə böyük siyasi cəsarət nümunəsi hesab olunurdu. Çünki SSRİ hələ formal olaraq mövcud idi və mərkəzi hakimiyyətə qarşı açıq ittiham irəli sürmək ciddi risk tələb edirdi. Heydər Əliyev çıxışında sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı cinayət törətdiyini bildirmişdi. [5, s.44-70]

1990-cı ilin yayında Heydər Əliyev Azərbaycana qayıtdı, lakin Bakı rəhbərliyi onun paytaxtda fəaliyyət göstərməsinə maneələr yaratdı. Bundan sonra o, Naxçıvana getdi və siyasi fəaliyyətini burada davam etdirdi. Naxçıvan MSSR Ali Məclisinin sədri seçilən Heydər Əliyev qısa müddətdə regionda siyasi sabitlik yaratmağa nail oldu. Həmin dövrdə Naxçıvan həm Ermənistanın hərbi təzyiqi, həm də iqtisadi blokada şəraitində yaşayırdı. Buna baxmayaraq, Heydər Əliyev bölgənin müdafiəsini təşkil edir, əhalinin sosial problemlərinin həlli üçün tədbirlər görürdü [5, s.66-70].

1991-ci ildə Sovet İttifaqının süqutu ilə Azərbaycan dövlət müstəqilliyini bərpa etsə də, ölkədə siyasi, iqtisadi və hərbi vəziyyət son dərəcə ağır idi. Mərkəzləşdirilmiş sovet idarəetmə sisteminin dağılması respublikanın bütün sahələrində dərin böhran yaratmışdı. Dövlət idarəetmə mexanizmləri faktiki olaraq zəifləmiş, iqtisadi əlaqələr pozulmuş, istehsal müəssisələrinin böyük hissəsi fəaliyyətini dayandırmışdı. Digər tərəfdən Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və Qarabağda genişlənən müharibə ölkədə vəziyyəti daha da mürəkkəbləşdirirdi.

1991-1992-ci illərdə hakimiyyətdə olan qüvvələr ölkədə sabit idarəçilik sistemi formalaşdıra bilmədilər. Silahlı dəstələrin fəaliyyəti genişlənmiş, mərkəzi hakimiyyətin bölgələr üzərində nəzarəti zəifləməyə başlamışdı. Həmin dövrdə dövlət strukturlarında peşəkar idarəçilik təcrübəsinin olmaması daxili siyasi qarşıdurmaları dərinləşdirirdi. Qarabağ cəbhəsində uğursuzluqlar artır, bir-birinin ardınca yaşayış məntəqələri işğal edilirdi. Xocalı faciəsi, Şuşa və Laçının itirilməsi Azərbaycan cəmiyyətində ciddi narazılıq yaratmışdı.

Bu mürəkkəb şəraitdə Heydər Əliyev siyasi fəaliyyətini Naxçıvanda davam etdirirdi. O, 1990-cı ildən Naxçıvan Ali Məclisinin sədri kimi muxtar respublikada dövlətçilik ənənələrinin qorunmasına çalışırdı. Ermənistan tərəfindən blokada vəziyyətində saxlanılan Naxçıvanda təhlükəsizlik tədbirləri gücləndirilmiş, əhalinin sosial problemlərinin həlli istiqamətində mühüm addımlar atılmışdı. Məhz Naxçıvanda ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət rəmzi kimi qəbul edilmişdi. Bu addım gələcək müstəqil dövlətçilik ideyasının siyasi ifadəsi hesab olunurdu [5, s.70-75].

1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın siyasi həyatında mühüm hadisə idi. Müxtəlif bölgələrdən olan ziyalılar və ictimai-siyasi xadimlər ölkədə yaranmış böhrandan çıxış yolunu Heydər Əliyevin siyasi rəhbərliyində görürdülər. Partiyanın proqramında dövlət müstəqilliyinin qorunması, hüquqi dövlət quruculuğu, milli həmrəylik və iqtisadi sabitliyin təmin olunması əsas istiqamətlər kimi müəyyənləşdirilmişdi. Həmin dövrdə Yeni Azərbaycan Partiyası qısa müddətdə ölkənin ən nüfuzlu siyasi təşkilatlarından birinə çevrildi.

1993-cü ilin yayında Azərbaycanda vəziyyət daha da kritik mərhələyə çatdı. Gəncə hadisələri nəticəsində ölkədə vətəndaş müharibəsi təhlükəsi yarandı. Hakimiyyət daxilində parçalanma güclənmiş, müxtəlif silahlı qruplar arasında qarşıdurma başlamışdı. Dövlət aparatının iflic vəziyyətinə düşməsi ölkənin müstəqilliyini real təhlükə qarşısında qoyurdu. Belə bir şəraitdə hakimiyyət Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu. [5, s.105-119].

1993-cü il iyunun 9-da Heydər Əliyev Bakıya gəldi. Onun paytaxta qayıdışı cəmiyyətdə böyük ümid yaratdı. Çünki ölkədə sabitliyi bərpa edə biləcək ən təcrübəli siyasi fiqur kimi məhz Heydər Əliyev qəbul edilirdi. O, ilk növbədə silahlı qarşıdurmanın qarşısını

almağa çalışdı və Gəncədə hərbi qüvvələrlə danışıqlar apardı. Bu danışıqlar vətəndaş müharibəsinin qarşısının alınmasında mühüm rol oynadı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Sonralar bu tarix Azərbaycan siyasi tarixində "Milli Qurtuluş Günü" kimi qiymətləndirildi. Həmin dövrdə ölkədə hakimiyyət böhranı artıq dövlət müstəqilliyinin itirilməsi təhlükəsi yaratmışdı. Heydər Əliyevin rəhbərliyə gəlməsi ilə dövlət idarəçiliyində tədricən sabitlik yaranmağa başladı. Dövlət orqanlarının fəaliyyətinin bərpası, hüquq-mühafizə sisteminin gücləndirilməsi və orduda nizam-intizamın yaradılması əsas prioritetlərə çevrildi.

1993-cü ilin oktyabrında keçirilən prezident seçkilərində Heydər Əliyev böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bununla da ölkədə yeni siyasi mərhələ başladı. Prezident seçildikdən sonra onun qarşısında duran əsas vəzifələr dövlətçiliyin qorunması, iqtisadi böhranın aradan qaldırılması və Qarabağ müharibəsinin nəticələrinin minimuma endirilməsi idi.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ilk mühüm addımlardan biri ordu quruculuğunun mərkəzləşdirilməsi oldu. Əvvəlki dövrdə müxtəlif siyasi qrupların nəzarətində olan silahlı dəstələr vahid komandanlıq altında birləşdirilməyə başladı. Dövlət rəhbərliyi nizami ordu modelinin formalaşdırılmasını prioritet elan etdi. Bu proses Azərbaycanın gələcək təhlükəsizlik sisteminin əsasını təşkil etdi.

1994-cü ilin may ayında Ermənistan ilə atəşkəs sazişinin imzalanması ölkə üçün mühüm dönüş nöqtəsi oldu. Müharibənin dayandırılması Azərbaycanın daxili sabitliyinin bərpası və iqtisadi inkişaf proqramlarının həyata keçirilməsi üçün imkan yaratdı. Atəşkəs həm də dövlət quruculuğu prosesinin sürətləndirilməsinə şərait yaratdı. Həmin dövrdə Heydər Əliyev beynəlxalq təşkilatlarla münasibətlərin genişləndirilməsinə xüsusi diqqət yetirirdi. Azərbaycan BMT, ATƏT, İslam Konfransı Təşkilatı və digər beynəlxalq qurumlarla əməkdaşlığını fəallaşdırdı.

1993-1994-cü illərdə Heydər Əliyevin siyasətinin əsas məqsədi ölkədə parçalanma meyillərinin qarşısını almaq idi. Müxtəlif separatçı qrupların fəaliyyəti ciddi təhlükə yaradırdı. Dövlət rəhbərliyi hüquq-mühafizə orqanlarının fəaliyyətini gücləndirərək mərkəzi hakimiyyətin nüfuzunu bərpa etməyə nail oldu. Bu mərhələdə həyata keçirilən tədbirlər sonrakı dövrdə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün əsas siyasi baza yaratdı [13, s. 170–178].

2003-cü il Azərbaycan Respublikasının siyasi tarixində mühüm dönüş mərhələsi hesab olunur. Həmin ilin oktyabr ayında keçirilən prezident seçkilərindən sonra İlham Əliyevin hakimiyyətə gəlməsi ilə ölkədə Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlətçilik kursunun davam etdirilməsi əsas prioritet kimi müəyyənləşdirildi. Bu dövr yalnız siyasi hakimiyyətin dəyişməsi deyil, eyni zamanda müstəqil Azərbaycanın inkişaf strategiyasında yeni mərhələnin başlanğıcı idi. İlham Əliyev prezident vəzifəsinə başladığı ilk çıxışlarında ölkədə siyasi sabitliyin qorunmasının, iqtisadi inkişafın sürətləndirilməsinin və Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmləndirilməsinin əsas vəzifə olduğunu vurğulayırdı. 31 oktyabr 2003-cü ildə keçirilən andiçmə mərasimində o bildirirdi ki, Azərbaycanda Heydər Əliyev siyasəti davam etdiriləcək və ölkənin inkişafı yeni mərhələyə qədəm qoyacaqdır.

2003-cü il noyabrın 24-də İlham Əliyev "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman imzaladı. Bu sənəd sonrakı regional inkişaf proqramlarının əsasını təşkil etdi. Ardınca 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008)" qəbul edildi. Bu proqram müstəqillik dövründə regionların inkişafına yönəlmiş ilk genişmiqyaslı dövlət strategiyası idi.

İlham Əliyevin iqtisadi siyasətində mühüm istiqamətlərdən biri qeyri-neft sektorunun inkişafı idi. O dövrdə Azərbaycan iqtisadiyyatı əsasən neft gəlirlərindən asılı vəziyyətdə idi. Hakimiyyət qarşısında duran əsas məqsəd neft gəlirlərinin iqtisadiyyatın digər sahələrinə yönəldilməsi idi. 2003-2005-ci illərdə Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı. Vergi və gömrük sistemində müəyyən dəyişikliklər edildi, sahibkarlara dövlət dəstəyi mexanizmləri genişləndirildi [6, s. 41–48].

İlham Əliyevin prezidentliyinin ilk illərində enerji siyasəti də xüsusi əhəmiyyət daşıyırdı. Heydər Əliyevin əsasını qoyduğu neft strategiyası artıq real nəticələr verməyə başlamışdı. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin sürətləndirilməsi Azərbaycan üçün strateji məsələ idi. Bu layihə Azərbaycanın dünya enerji bazarına birbaşa çıxışını təmin etməli idi. İlham Əliyev hələ ARDNŞ-in birinci vitse-prezidenti olduğu dövrdə BTC layihəsinin həyata keçirilməsində mühüm rol oynamışdı. Xarici neft şirkətləri ilə danışıqlarda onun fəal iştirakı layihənin reallaşmasına ciddi təsir göstərmişdi [20, s. 105–118].

2005-ci il mayın 25-də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Azərbaycan hissəsinin açılışı keçirildi. Bu hadisə Azərbaycanın müstəqillik dövrünün ən mühüm iqtisadi və geosiyasi nailiyyətlərindən biri hesab olunur. Layihə Azərbaycanın enerji resurslarını Rusiya ərazisindən yan keçməklə dünya bazarına çıxarmağa imkan verdi. BTC layihəsinin reallaşması yalnız iqtisadi hadisə deyildi. Bu layihə Azərbaycanın beynəlxalq nüfuzunu artırdı və ölkəni regionun

əsas enerji mərkəzlərindən birinə çevirdi. ABŞ və Avropa dövlətləri Azərbaycanı strateji tərəfdaş kimi qiymətləndirməyə başladılar. Azərbaycanın geosiyasi əhəmiyyəti xüsusilə artdı. Bu dövrdə İlham Əliyev xarici siyasətdə balanslaşdırılmış kursu davam etdirirdi. Azərbaycan həm Qərb dövlətləri, həm Türkiyə, həm də Rusiya ilə münasibətləri qorumağa çalışırdı. Xüsusilə Türkiyə ilə strateji əməkdaşlıq gücləndirilirdi. Bakı-Tbilisi-Ceyhan layihəsi də məhz Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığının nəticəsi idi.

2006-cı ilin iyul ayında Bakı-Tbilisi-Ceyhan kəməri tam gücü ilə fəaliyyətə başladı. Bunun nəticəsində Azərbaycan neftinin Aralıq dənizi vasitəsilə dünya bazarına çıxışı təmin edildi. Dövlət büdcəsinə daxil olan gəlirlər sürətlə artdı. Həmin dövrdə Neft Fondunda toplanan vəsaitlər dövlətin sosial və iqtisadi layihələrinin maliyyələşdirilməsində mühüm rol oynayırdı. İlham Əliyev neft gəlirlərinin yalnız cari xərclərə deyil, strateji layihələrə yönəldilməsini əsas prioritet hesab edirdi.

2003-2010-cu illərdə ölkədə yüz minlərlə yeni iş yeri yaradılmışdı. İqtisadi artım nəticəsində yoxsulluq səviyyəsi də əhəmiyyətli dərəcədə azalmağa başladı. Əgər 2002-ci ildə yoxsulluq səviyyəsi əhalinin təxminən yarısını əhatə edirdisə, sonrakı illərdə bu göstərici sürətlə aşağı düşdü. Bunun əsas səbəblərindən biri dövlət sosial proqramlarının genişləndirilməsi idi. Əvvəlki dövrdə hazırlanmış "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı" da bu siyasətin əsasını təşkil edirdi.

2006-cı ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi Azərbaycanın enerji strategiyasında yeni mərhələ yaratdı. "Şahdəniz" yatağından hasil olunan qazın Türkiyə və Avropa bazarlarına çıxarılması ölkənin enerji imkanlarını daha da genişləndirdi. Mənbələrdə göstərilir ki, "Şahdəniz" layihəsi ilə bağlı qərarlar 2003-cü ildən etibarən sürətləndirildi və bu layihə regionun enerji təhlükəsizliyində mühüm rol oynadı [20, s. 126–133].

Enerji layihələrinin həyata keçirilməsi Azərbaycanın beynəlxalq mövqeyini də gücləndirdi. ABŞ və Avropa İttifaqı Azərbaycanı etibarlı enerji tərəfdaşı kimi qiymətləndirirdi. Azərbaycanın Avropa enerji təhlükəsizliyində rolu artdıqca, ölkənin beynəlxalq siyasi çəkisi də yüksəlirdi. 2005-2010-cu illərdə İlham Əliyevin xarici siyasət kursu balanslaşdırılmış siyasət prinsiplərinə əsaslanırdı. Azərbaycan bir tərəfdən Türkiyə və Qərb dövlətləri ilə əməkdaşlığı genişləndirir, digər tərəfdən Rusiya ilə münasibətlərin qorunmasına çalışırdı. Bu siyasət nəticəsində Azərbaycan regionda müstəqil xarici siyasət yürüdən dövlət kimi mövqeyini möhkəmləndirdi. Bu dövrdə NATO ilə əməkdaşlıq da genişləndi. Azərbaycan 2004-cü ildə NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planına (IPAP) qoşuldu və təşkilatla əməkdaşlığın institusional əsasları gücləndirildi. Azərbaycanın Silahlı Qüvvələrində NATO standartlarına uyğun islahatlar aparılmağa başlandı [21, s. 184–191].

2010-cu illərin əvvəllərində Azərbaycan artıq regionun əsas enerji ixracatçılarından biri kimi çıxış edirdi. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz xətti ölkənin iqtisadi imkanlarını genişləndirmişdi. İlham Əliyev bu mərhələdə enerji siyasətini yalnız neft və qaz ixracı ilə məhdudlaşdırmır, eyni zamanda Azərbaycanın geosiyasi əhəmiyyətini artıran strateji istiqamət kimi qiymətləndirirdi. Dövlət başçısı müxtəlif beynəlxalq forumlarda çıxış edərək Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını xüsusi vurğulayırdı. Bu dövrdə həyata keçirilən ən mühüm layihələrdən biri "Cənub Qaz Dəhlizi" layihəsinin formalaşdırılması idi. 2011-ci ildən etibarən Avropa İttifaqı ilə enerji əməkdaşlığı daha da genişləndirildi. "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunacaq qazın Avropaya nəqli məqsədilə TANAP və TAP layihələrinin əsasları yaradıldı. Bu layihələr Azərbaycanın beynəlxalq enerji bazarındakı mövqeyini daha da gücləndirdi. İlham Əliyev dəfələrlə bəyan edirdi ki, Azərbaycan öz enerji siyasətini milli maraqlar və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri üzərində qurur [20, s. 214–223].

2012-ci ildə Türkiyə ilə Trans-Anadolu Qaz Boru Kəməri - TANAP layihəsinə dair mühüm saziş imzalandı. Bu layihə Azərbaycan qazının Türkiyə ərazisindən keçməklə Avropa bazarına çatdırılmasını nəzərdə tuturdu. TANAP layihəsi yalnız iqtisadi deyil, həm də strateji baxımdan mühüm əhəmiyyətə malik idi. Çünki bu layihə vasitəsilə Azərbaycan Avropanın enerji təhlükəsizliyində əsas tərəfdaşlardan birinə çevrilirdi.

2014-cü ilin "Sənaye ili" elan olunması bu istiqamətdə atılmış mühüm addımlardan biri idi. Həmin dövrdə Sumqayıt Kimya Sənaye Parkı və digər sənaye zonalarının yaradılması istiqamətində işlər sürətləndirildi. Dövlət sənaye müəssisələrinin inkişafını stimullaşdırmaq üçün sahibkarlığa güzəştli kreditlər ayırırdı. Bu dövrdə dövlət idarəçiliyində institusional islahatlar da həyata keçirilirdi. Xüsusilə "ASAN xidmət" modelinin yaradılması Azərbaycan dövlət idarəçiliyi tarixində mühüm mərhələ hesab olunur. 2012-ci ildə yaradılan ASAN xidmət mərkəzləri dövlət-vətəndaş münasibətlərində şəffaflığın artırılması, korrupsiya hallarının azaldılması və vətəndaşlara operativ xidmət göstərilməsi məqsədini daşıyırdı [21, s. 201–208].

ASAN xidmət qısa müddət ərzində cəmiyyət tərəfindən böyük rəğbətlə qarşılandı. Bu sistem vasitəsilə əhaliyə vahid mərkəzdən müxtəlif dövlət xidmətləri təqdim olunurdu. Sonrakı illərdə ASAN xidmət bey-

nəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildi və BMT-nin xüsusi mükafatına layiq görüldü. Azərbaycan bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edirdi. 2011-ci ildə ölkə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Bu hadisə Azərbaycanın beynəlxalq aləmdə artan siyasi nüfuzunun göstəricisi hesab olunurdu.

İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətdə nəqliyyat və logistika layihələri xüsusi yer tuturdu. Azərbaycan öz coğrafi mövqeyindən istifadə edərək regionun əsas tranzit mərkəzlərindən birinə çevrilməyə çalışırdı. Bu siyasətin nəticəsi olaraq Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi həyata keçirildi. 2017-ci ildə istifadəyə verilən bu dəmir yolu xətti Asiya ilə Avropanı birləşdirən mühüm nəqliyyat marşrutlarından biri hesab olunurdu. Bakı-Tbilisi-Qars layihəsi yalnız iqtisadi deyil, həm də geosiyasi əhəmiyyətə malik idi. Layihə Azərbaycanın beynəlxalq nəqliyyat sistemində rolunu artırırdı. İlham Əliyev açılış mərasimində bildirmişdi ki, bu layihə Avrasiya məkanında yeni iqtisadi əməkdaşlıq imkanları yaradacaqdır [21, s. 228–236].

2020-ci ildən sonrakı dövr Azərbaycan Respublikasının müasir tarixində yeni siyasi, hərbi və geosiyasi mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkə yalnız hərbi qələbə əldə etməmiş, eyni zamanda postmüharibə quruculuğu, regional əməkdaşlıq, nəqliyyat-kommunikasiya layihələri və dövlət idarəçiliyinin yenidən təşkili istiqamətində genişmiqyaslı fəaliyyət həyata keçirmişdir. Bu dövr Azərbaycanın dövlətçilik tarixində həm siyasi gücün möhkəmləndirilməsi, həm də beynəlxalq mövqeyinin əhəmiyyətli şəkildə güclənməsi ilə xarakterizə olunmuşdur.

2020-ci ilin payızında baş vermiş Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası baxımından dönüş nöqtəsi oldu. 27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı. Prezident İlham Əliyev Ali Baş Komandan kimi əməliyyatlara birbaşa rəhbərlik edir, hərbi və siyasi prosesləri koordinasiya edirdi. Müharibə dövründə dövlət başçısının xalqa mütəmadi müraciətləri cəmiyyətin həmrəyliyinin qorunmasında mühüm rol oynadı. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları və Şuşa şəhəri işğaldan azad edildi. Xüsusilə Şuşanın azad olunması müharibənin taleyini müəyyənləşdirən əsas hadisələrdən biri hesab olunurdu. Şuşanın strateji və mənəvi əhəmiyyəti Prezident İlham Əliyevin çıxışlarında xüsusi vurğulanırdı. Dövlət başçısı Şuşanı "Azərbaycanın mədəniyyət paytaxtı" adlandıraraq şəhərin azad edilməsini tarixi ədalətin bərpası kimi qiymətləndirirdi.

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında imzalanmış üçtərəfli bəyanat hərbi əməliyyatların başa çatmasına səbəb oldu. Bu sənəd nəticəsində Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycana qaytarıldı. Beləliklə, Azərbaycan beynəlxalq hüquq çərçivəsində ərazi bütövlüyünü böyük ölçüdə təmin etmiş oldu.

Prezident İlham Əliyev müharibədən sonra çıxışlarında bildirirdi ki, Azərbaycan artıq yeni inkişaf mərhələsinə daxil olur və əsas məqsəd azad edilmiş ərazilərin bərpasıdır. Dövlət başçısı bu prosesi "Böyük Qayıdış" proqramı çərçivəsində həyata keçirməyə başladı.

2021-ci ildən başlayaraq Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı yenidənqurma işlərinə start verildi. Müharibə nəticəsində dağıdılmış şəhər və kəndlərin yenidən qurulması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Prezident İlham Əliyev dəfələrlə bəyan edirdi ki, azad olunmuş ərazilər "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası əsasında bərpa olunacaqdır.

2022-2024-cü illərdə Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının istifadəyə verilməsi postmüharibə infrastruktur siyasətinin ən mühüm nailiyyətlərindən biri oldu. Füzuli Beynəlxalq Hava Limanı rekord qısa müddətdə tikilərək istifadəyə verildi. Azad edilmiş ərazilərdə yol infrastrukturu da yenidən quruldu. "Zəfər yolu" layihəsi bu baxımdan xüsusi əhəmiyyətə malik idi. Şuşaya gedən yeni magistral yol həm strateji, həm də simvolik əhəmiyyət daşıyırdı. Bununla yanaşı, Horadiz-Ağbənd dəmir yolu xətti və digər nəqliyyat layihələri Zəngəzur dəhlizi konsepsiyasının tərkib hissəsi kimi nəzərdən keçirilirdi.

Prezident İlham Əliyev Zəngəzur dəhlizini regionun gələcək iqtisadi və geosiyasi inkişafı baxımından mühüm layihə kimi təqdim edirdi. Dövlət başçısının fikrincə, bu layihə yalnız Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz üçün yeni iqtisadi imkanlar yaradacaqdır. 2021-ci ildən başlayaraq bu məsələ regional diplomatiyanın əsas mövzularından birinə çevrilmişdi.

Postmüharibə dövründə Azərbaycanın xarici siyasətində Türkiyə ilə münasibətlər xüsusi yer tuturdu. 2021-ci ilin iyun ayında Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərində yeni mərhələnin başlanğıcı hesab olunur. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan bu sənəd iki ölkə arasında müttəfiqlik münasibətlərini rəsmiləşdirirdi.

2023-cü ildə Azərbaycan Qarabağda tam suverenliyini təmin etmək istiqamətində yeni addımlar atdı. Laçın istiqamətində sərhəd-keçid məntəqəsinin yaradılması dövlət sərhədlərinə nəzarətin bərpası baxımından mühüm hadisə idi. Prezident İlham Əliyev

bu addımı Azərbaycanın suveren hüququ kimi qiymətləndirirdi. 2023-cü ilin sentyabr ayında keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın Qarabağ bölgəsində tam konstitusiya quruluşu təmin olundu. Bununla da ölkənin ərazi bütövlüyü və dövlət suverenliyi tam şəkildə bərpa edilmiş hesab edildi. Prezident İlham Əliyev sonrakı çıxışlarında qeyd edirdi ki, Azərbaycan artıq münaqişə mərhələsini arxada qoymuş və yeni inkişaf dövrünə daxil olmuşdur. Prezident İlham Əliyev 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etdi. Bu qərar Azərbaycanın enerji siyasətində yeni mərhələnin formalaşdığını göstərirdi. Dövlət başçısı çıxışlarında vurğulayırdı ki, ölkə yalnız neft və qaz ixrac edən dövlət deyil, eyni zamanda alternativ enerji sektorunda regional liderə çevrilməyi hədəfləyir.

Bu siyasətin ən mühüm hadisəsi Azərbaycanın 2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı - COP29-a ev sahibliyi etməsi oldu. Azərbaycanın bu tədbirə ev sahibliyi hüququ əldə etməsi beynəlxalq diplomatik uğur kimi qiymətləndirilirdi. Çünki ölkənin namizədliyi böyük dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənmişdi.

Azərbaycanda prezident hakimiyyətinin təkamülü müstəqil dövlətçilik modelinin formalaşması ilə sıx bağlı olmuş və bu prosesin əsas siyasi-fəlsəfi təməli Heydər Əliyevin fəaliyyəti ilə müəyyənləşmişdir. Onun rəhbərliyi dövründə ölkədə siyasi sabitlik təmin edilmiş, hüquqi dövlət quruculuğunun institusional əsasları yaradılmış, milli maraqlara söykənən idarəçilik modeli formalaşdırılmışdır. Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası iqtisadi modernləşmə, milli həmrəylik, ordu quruculuğu və balanslaşdırılmış xarici siyasət prinsipləri üzərində qurulmuşdur. Sonrakı mərhələdə Prezident İlham Əliyev tərəfindən bu siyasi kurs yeni geosiyasi reallıqlara uyğun şəkildə davam etdirilmiş, Azərbaycanın beynəlxalq mövqeyi daha da möhkəmləndirilmiş, enerji diplomatiyası, regional əməkdaşlıq, dövlət idarəçiliyinin rəqəmsallaşdırılması və postmüharibə quruculuğu istiqamətində mühüm nəticələr əldə olunmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Azərbaycan Respublikasının Konstitusiyası. (2016). Bakı: Azərbaycan Respublikası.*
2. *Azərbaycan Respublikası Prezidentinin rəsmi veb-saytı. (2026, 23 fevral). https://president.az.*
3. *Azərbaycan Milli Elmlər Akademiyası, A. Bakıxanov adına Tarix İnstitutu. (2008). Azərbaycan tarixi (1941-2002-ci illər): Yeddi cilddə, VII cild. Bakı: Elm.*
4. *Qaffarov, T. (Məsul red.). (2008). Azərbaycan tarixi: Yeddi cilddə. VII cild: 1941-2002-ci illər. Bakı: Elm.*
5. *Qasımlı, M. C. (2021). Azərbaycan Respublikasının tarixi (1991-2021): 2 cilddə. I cild (1991-2003). Bakı: Bakı Dövlət Universiteti.*
6. *Cornell, S. E., Karaveli, H., & Ajeganov, B. (2016). Azerbaijan's formula: Secular governance and civic nationhood. Central Asia-Caucasus Institute & Silk Road Studies Program.*
7. *Qurbanov, H. (2023). Heydər Əliyev Azərbaycanda milli qanunvericiliyin və hüquqi dövlətin yaradıcısıdır. Bakı: Nafta-Press.*
8. *Azərbaycan Milli Elmlər Akademiyası, A. A. Bakıxanov adına Tarix İnstitutu. (2013). Heydər Əliyev: İki cilddə (1-ci cild). Bakı: Turxan.*
9. *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Prezident Kitabxanası. (2014). Məqalələr (2009-2014-cü illər). Bakı.*
10. *Qurbanov, S. (2024). Dünya və Azərbaycan siyasətində Heydər Əliyev kursu. Bakı: İZƏ. s.400*
11. *Rəhimzadə, A. (2014). Səmərəli inkişaf modelinin banisi. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Prezident Kitabxanası. Məqalələr (2009-2014-cü illər). Bakı.*
12. *Muradov, Ş. (2019). Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi. Bakı: Avropa. s.594*
13. *Qasımlı, M. C. (2021). Azərbaycan Respublikasının tarixi (1991-2021): 2 cilddə. I cild (1991-2003). Bakı: Bakı Dövlət Universiteti.*
14. *Əliyev, H. Ə. (1998). Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Andiçmə mərasimində nitqi (18 oktyabr 1998-ci il). Heydər Əliyev İrs Araşdırma Mərkəzi.*
15. *"Heydər Əliyevin rəhbərliyinin I dövrü". Azərbaycan Respublikasının rəsmi portalı.*
16. *"Heydər Əlirza oğlu Əliyev". Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi.*
17. *Qurbanov, H. (2023). Heydər Əliyev Azərbaycanda milli qanunvericiliyin və hüquqi dövlətin yaradıcısıdır. Bakı: Nafta-Press.*
18. *"Heydar Aliyev: National Leader of Azerbaijan". ResearchGate nəşri, 2022.*
19. *"The Era of Heydar Aliyev, the Great Leader of the Azerbaijani People". David Publishing, 2023.*
20. *Hümbətov, Fuad Dursun oğlu. Müasir beynəlxalq münasibətlərdə enerji diplomatiyası: dərslik / F. D. Hümbətov; elmi red. R. F. Məmmədov.- Bakı: ADMİU, 2018.- 356 s.*
21. *Hasanov, A. (2018). Geosiyasət: müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Şərq-Qərb.*
22. *Ismayilov, M. (2020). Azerbaijan's foreign policy and the South Caucasus. Journal of Eurasian Studies, 11(2), 145–159.*
23. *Guliyev, F. (2019). Oil and national deve-*

*lopment in Azerbaijan. Europe-Asia Studies, 71(7), 1132–1150.*

## THE EVOLUTION OF PRESIDENTIAL POWER IN THE REPUBLIC OF AZERBAIJAN AND THE DEVELOPMENT DIRECTIONS OF THE NATIONAL POLITICAL MODEL

**Fidan Eldar Yusifzada**
***Doctoral Student of the Department of Political Science and Political Administration, Academy of Public Administration under the President of the Republic of Azerbaijan***

**SMMARY**

The article analyzes the stages of formation and development of presidential power in the Republic of Azerbaijan within the context of the political activities of Heydar Aliyev and Ilham Aliyev. The study examines the economic, political, and national-cultural reforms implemented in Azerbaijan under the leadership of Heydar Aliyev beginning from 1969, as well as the formation of the concept of national statehood and the development of the ideology of Azerbaijanism. At the same time, the article broadly interprets the political crisis that emerged in Azerbaijan during the years of independence, Heydar Aliyev's return to power in 1993, the restoration of stability in state administration, military construction, and the establishment of a balanced foreign policy course.

The research particularly focuses on the economic development strategy carried out during Ilham Aliyev's presidency, energy policy, the significance of the Baku-Tbilisi-Ceyhan and Southern Gas Corridor projects, regional socio-economic development programs, and institutional reforms in public administration. In addition, the study investigates the post-war period after 2020, the restoration of Azerbaijan's territorial integrity, reconstruction policy in Karabakh, the "Great Return" program, the Zangezur Corridor project, and the strengthening of Azerbaijan's international prestige within the framework of COP29 in the context of contemporary political processes.

**Keywords:** *presidential system of governance, national statehood, ideology of Azerbaijanism, political stability, post-war development.*

## ЭВОЛЮЦИЯ ПРЕЗИДЕНТСКОЙ ВЛАСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ НАЦИОНАЛЬНОЙ ПОЛИТИЧЕСКОЙ МОДЕЛИ

**Фидан Эльдар Юсифзаде**
***Докторант кафедры политологии и политического управления, Академия государственного управления при Президенте Азербайджанской Республики***

**РЕЗЮМЕ**

В статье анализируются этапы формирования и развития института президентской власти в Азербайджанской Республике в контексте политической деятельности Гейдара Алиева и Ильхама Алиева. В исследовании рассматриваются экономические, политические и национально-культурные реформы, осуществлённые в Азербайджане под руководством Гейдара Алиева начиная с 1969 года, а также процесс формирования национальной государственности и развитие идеологии азербайджанства. Одновременно подробно освещаются политический кризис, возникший в Азербайджане в годы независимости, возвращение Гейдара Алиева к власти в 1993 году, обеспечение стабильности государственного управления, строительство национальной армии и формирование сбалансированного внешнеполитического курса.

Особое место в исследовании занимают стратегия экономического развития, реализованная в период президентства Ильхама Алиева, энергетическая политика, значение проектов Баку-Тбилиси-Джейхан и Южного газового коридора, программы социально-экономического развития регионов и институциональные реформы в системе государственного управления. Кроме того, в статье исследуются поствоенный период после 2020 года, восстановление территориальной целостности Азербайджана, политика реконструкции Карабаха, программа «Великое возвращение», проект Зангезурского коридора и укрепление международного авторитета Азербайджана в рамках COP29 в контексте современных политических процессов.

**Ключевые слова:** *президентская система управления, национальная государственность, идеология азербайджанства, политическая стабильность, поствоенное развитие.*

*Rəyçi: Siyasi elmlər doktoru, professor Əliyeva Sevda*
*Məqalə redaksiyaya daxil olub: 16.03.2026*
*Çapa qəbul olunub: 28.04.2026*

*The date of the admission of the article to the editorial office: 16.03.2026*
*Accepted for publication: 28.04.2026*